**Tahirov, T**. "Briqadir ana"nın qəhrəman oğlu // Respublika. - 2025. - 4 iyun. - **№ 115**. - S. 11.

***Şəhid Novruz Həmzəyev fədakarlıq nümunəsi oldu***

Hər işğaldan azad olunan torpaq parçasının, hər zəfərin, hər azadlıq anının arxasında bir igidin canı, bir ananın qeyrət simvolu var. Azərbaycanın şanlı Zəfər tarixini yazan bu igidlərdən biri də şəhid Novruz Həmzəyevdir. Onun hekayəsi bir qəhrəmanlıq dastanıdır, vətənə olan sonsuz sevginin, fədakarlığın nümunəsidir.

İsmayıllı rayonunda 1992-ci ildə dünyaya gələn Novruz Həmzəyev qəhrəmanlıq ruhunu anasından - "briqadir ana" adı ilə tanınan Zenfira Seyidovadan almışdı. Ağsu Peşə Məktəbində üzümçülük ixtisası üzrə təhsil alan Zenfira xanım zəhmətkeşliyi, əzmkarlığı ilə fərqlənmiş və bir zamanlar Ümummilli Lider Heydər Əliyev tərəfindən "briqadir ana" adına layiq görülmüşdü. Belə bir ananın övladı olan Novruz da kiçik yaşlarından iradəli, qorxmaz, məsuliyyətli bir gənc kimi yetişmişdi.

2009-cu ildə İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzini "avtomobil təmiri - təmirçi çilingər" ixtisası üzrə bitirən Novruz təhsildə də nümunəvi olmuşdu. Müəllimlərinin və dostlarının xatirələrində o, həmişə məsuliyyətli, verilən tapşırıqları vaxtında və dəqiqliklə yerinə yetirən gənc kimi yaşayır. Bu xüsusiyyətlər onun hərbi xidmətində də özünü göstərmişdi. Aprel döyüşlərində iştirak edən Novruz özündən yadigar kimi kiçik bir bayraq saxlamışdı. Həmin bayraq şəhid olduğu gün də onun cibində idi...

İkinci Qarabağ müharibəsində Novruz 43 gün boyunca Qubadlı, Zəngilan, Suqovuşan kimi strateji ərazilərin azadlığı uğrunda vuruşdu. Onun arzusu sadə idi: "Torpaqlarımızı azad görmək!" Elə bu arzu uğrunda döyüş meydanında mərdliklə mübarizə apardı və müharibənin bitməsinə cəmi bir gün qalmış, noyabrın 7-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid oldu.

Döyüşdən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olundu. Bu medallar bir qəhrəmanın səssiz səsidir - "Torpaq üçün can vermək müqəddəsdir!" Anası Zenfira xanım bu gün oğlunun qəhrəmanlığı ilə dik durur, fəxrlə deyir: "Torpaq da anadır, torpaq da oğlumu qucaqladı..."

Şəhid Novruz Həmzəyev qəhrəman bir xalqın fəxridir. Onun kimi igidlərin yazdığı salnamə təkcə tarix kitablarında deyil, qəlblərimizdə yaşayacaq. Onlar ölmədilər, bir millətin yaddaşında əbədiləşdilər. Bu gün də Azərbaycanımızın qəhrəman oğlunun xatirəsi İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində xüsusi hörmət və ehtiramla anılır.

Ruhun şad olsun, ey torpaq sevdalısı şəhid!